# Şərq Tərəfdaşlığı regionunda siyasətin formalaşdırılması və ictimai məlumatlandırma üçün son ekoloji qiymətləndirməhesabatlarının effektivliyi və uyğunluğu Azərbaycan Respublikası

İşçi sənəd, Oktyabr 2017



European Environment Agency

Örtükdizaynı: Zoï Environment Network
Tərtibat: Zoï Environment Network / Maria Libert

**Hüquqi bildiriş**

Bu nəşr Avropa İttifaqının köməyi ilə hazırlanmışdır, lakin məzmunu Avropa Komissiyasının və ya Avropa İttifaqının digər institutlarının rəsmi fikirlərini mütləq şəkildə əks etdirmir. Nə Avropa Ətraf Mühit Agentliyi, nə də Agentliyin adından fəaliyyət göstərən hər hansı bir şəxs və ya şirkət, bu hesabatda yer alan informasiyanın istifadə edilməsində məsuliyyət daşımır.

**Müəllif hüquqlarıbildirişi**

© Avropa Ətraf Mühit Agentliyi, 2017
Avropa İttifaqı haqqında məlumatlar internetdə mövcuddur. Məlumatlar Europa serveri vasitəsilə əldə edilə bilər. (www.europa.eu).

Luksemburq: Avropa İttifaqının Nəşriyyat Ofisi, 2017

**Disclaimer**

Bu sənəddə istifadə olunan adlar və materialın təqdim edilməsi Avropa Ətraf Mühit Agentliyinin hər hansı bir dövlət, əyalət, şəhər və ya ərazisinin hüquqi statusu, yaxud onun səlahiyyətləri və ya onun sərhəd və hüdudlarının məhdudlaşdırılması ilə əlaqəli hər hansı bir fikrin ifadəsini nəzərdə tutmur.

EMAS
VERIFIED
ENVIRONMENTAL
MANAGEMENT

Avropa Ətraf Mühit Agentliyi
Kongens Nytorv 6
1050 Copenhagen K
Danimarka
Tel.: +45 33 36 71 00
Veb səhifə: eea.europa.eu
Enquiries: eea.europa.eu/enquiries

# Mündəricat


1 Giriş........................................................ 4

2 Nəticələrvəəsasməsələlər........................... 6
• Effektivlik............................................... 6
• Keyfiyyət.................................................. 7
• Səmərəlilik............................................... 8
• Siyasətin təsiri......................................... 9
• Məlumatlandırma və əhatə dairəsi................ 10

3 Nəticələr və mülahizələr............................. 11

Əlavələr............................................................ 12
• Sorğuya cəlb edilmiş təşkilatlar.................... 13
• Sorğuya cavabların xülasəsi ........................ 14
• Dəyərləndirmə aləti................................. 17


# Təşəkkürlər


Avropa Ətraf Mühit Agentliyi tərəfindən hazırlanmış və səlahiyyətləndirilmiş, Avropa İttifaqı tərəfindən maliyyələşdirilmiş bu araşdırma Şərq Tərəfdaşlıq Təşəbbüsü Şərq tərəfdaş ölkələrindəki istifadəçi sorğusunun bir çox iştirakçılarının töhfələri ilə Zoï Environment Network Şəbəkəsi tərəfindən həyata keçirilmişdir.

Hesabatın müəllifləri Zoï Environment Networkdən Nikolay Denisovun da iştirakı ilə, Qafqaz üzrə Regional Ətraf Mühit Mərkəzindən Bariz Mehdiyev və Lesya Nikolayevadır. Həmçinin, Qafqaz üzrə Regional Ətraf Mühit Mərkəzindən Evgenia Mehdiyevanın, Avropa ətraf Mühit Agentliyindən isə Jana Tafi, Viktoriya Gonçarova, Galina Georgiyeva Hristova və Adriana Gheorghenin qatqıları olmuşdur.

Adriana Gheorghe və David Stanners tərəfindən əlavə Avropa Ətraf Mühit Agentliyi dəstəyi və məsləhəti əldə edildi.

AƏMA və Zoï Ətraf Mühit Şəbəkəsi tərəfdaş ölkələrdə araşdırmaya töhfə verdiklərinə, verdikləri fikirlərə və əlavə məlumatlarına görə Şərq Tərəfdaşlıq Təşəbbüsü Ortaq Ekoloji İnformasiya Sistemi (OEİS) II üzrə milli əlaqələndiricilər Faiq Mütəllimov, Rəna Lazımova, milli və bələdiyyə orqanlarına, Aarhus mərkəzlərinə, qeyri-hökumət, akademik və digər təşkilatlara təşəkkür edir.

Həmçinin, İngilis dilində olan nəşrlərin redaktə edilməsi üçün Geoffrey Hughesə (Zoï Environment Network) və qrafik dizayn və tərtibat üçün Mariya Libertə (Zoï Environment Network), eləcədə də tərcümə üçün Aygün Xəlilovaya təşəkkür edirik.

# 1 Giriş

Bu hesabat Azərbaycan Respublikasında (bundan sonra Azərbaycan) ətraf mühitin qiymətləndirilməsi üzrə hesabatların istifadəçilərinin sorğusunu sintez edir. "Avropa sərhəd bölgələrində Paylaşılan Ekoloji İnformasiya Sisteminin (PEİS) prinsipləri və praktikasının həyata keçirilməsi (ENI SEIS II East)" layihəsi çərçivəsində Aİ tərəfindən maliyyələşdirilən bu tədqiqatın başlıca məqsədi istifadəçilərin ölkələrində nəşr olunan ekoloji qiymətləndirmələrin keyfiyyəti və faydalılığını necə qəbul etdiyini daha yaxşı anlamaq idi. Yekun məqsəd isə ölkələrin müntəzəm ekoloji qiymətləndirmə və hesabat vermə qabiliyyətlərinin onların siyasətini, ictimai maarifləndirilməsi və nəhayət ekoloji performansını daha yaxşı dəstəkləmək üçün daha da genişləndirə biləcəyini müəyyən etmək idi.

Avropa Ətraf Mühit Agentliyi tərəfindən hazırlanmış və səlahiyyətləndirilmiş, Zoï Environment Network tərəfindən həyata keçirilmiş bu tədqiqat altı ölkənin hər birində ekoloji qiymətləndirmələrin istifadəçiləri ilə bir sıra müsahibələr aparılaraq həyata keçirilmişdir. Müsahibələr milli qiymətləndirmələrin effektivliyini və səmərəliliyini qiymətləndirmək məqsədilə Avropa Ətraf Mühit Agentliyinin standart sorğusuna əsaslanırdı. Müsahibələr və ilkin analiz Zoï və Tbilisidə Cənubi Qafqaz üzrə Regional Ətraf Mühit Mərkəzi tərəfindən Azərbaycan üçün həyata keçirildi. Ekoloji qiymətləndirmələrin yayılaması və istifadəsi barədə məlumatları toplamaq üçün həm birbaşa, həm də mövcud kanallar vasitəsilə cəhdlər həyata keçirilmişdir. Bu çalışma Azərbaycanda ENI SEIS II layihəsi üçün milli mərkəzlər tərəfindən koordinasiya edildi və mümkün dərəcədə yardım edildi.

Aşağıda yoxlanış üçün istifadə edilən vahid və tematik ekoloji qiymətləndirmələr təsvir edilmişdir.

2008-2012-ci illərdə Ekoloji vəziyyətlər üzrə MilliHesabat, 2013, Azərbaycan dilində. Bu 96 səhifəlik hesabata aşağıdakı mövzular daxildir: ölkənin ekoloji siyasəti üzrə ümumi məlumat, su resurslarının, atmosfer havasının, torpaq resurslarının mühafizəsi və idarəolunması, biomüxtəlifliyin qorunması,tullantılasın idarəolunması və meşə ehtiyatları. Həmçinin, hidrometeroloji və geoekoloji situasiyalar və digər ekoloji məlumatları əhatə edir. Vizual materiallara cədvəllər, qrafiklər, diaqramlar və xəritələr daxildir.

Bioloji Müxtəliflik üzrə Konvensiyaya Azərbaycan Respublikasının Beşinci Milli Hesabatı, 2014, İngilis dilində. 64 səhifəlik bu hesabatın strukturu Konvensiya tərəfindən nəşr olunan Beşinci Milli Hesabat üçün təlimatlara əsaslanır. Üç əsas hissədən ibarətdir və biomüxtəlifliyin cari vəziyyəti haqqında informasiyanı; tendensiyalar, təhdidlər və əhalinin rifahına təsirlərini; milli biomüxtəliflik strategiyası və fəaliyyət planını; 2020 Aiçi Biomüxtəliflik Hədəflərini; və Minilliyin İnkişaf Məqsədlərinin müvafiq 2015-ci il hədəflərini əhatə edir. Hesabata əlavələrdə beynəlxalq müqavilələrin siyahısı, Prezident sərəncamları və əmrləri, qanunlar, qərarlar, dövlət proqramları və planları təqdim olunmuşdur. Burada çox az sayda vizual material vardır.

İqlim Dəyişikliyi üzrə Birləşmiş Millətlər Təşkilatı Çərçivə Konvensiyasına Azərbaycanın Üçüncü Milli Kommunikasiyası, 2015, Azərbaycan dilində. 90səhifəlik bu sənəd BMTİDÇK-nin tələblərinə uyğun olaraq hazırlanmışdır. Sənədin bölmələrinə iqlim dəyişikliyi, istixana qazları inventar nəticələri, azaltma analizi, iqlim dəyişikliyi ssenariləri, həssaslığın və adaptasiyanın qiymətləndirilməsi ilə bağlı milli şərtlər və digər əlaqədar məsələlər daxildir. Hesabat yaxşı təsvir olunmuşdur.

Ekoloji qiymətləndirmələrin ümumi hazırlanmasına görə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi məsuliyyət daşıyır. Hər beş ildən bir Nazirlik ekoloji vəziyyətlər ilə bağlı milli hesabat hazırlayır və yayır. 2008-2012-ci illəri əhatə edən ən sonuncu hesabat 2013-cü ildə hazırlandı. Nazirlik QEF və BMTİP maliyyə və texniki dəstəyi ilə BMK-a Beşinci Milli Hesabatı hazırladı. Son dövrlərdə isə Azərbaycan - QEF, BMTİP və GİZ – in texniki və maliyyə dəstəyi ilə- Milli Biomüxtəliflik Strategiyalarının və Fəaliyyət Planının (BMSFP) yenidən nəzərdən keçirilməsi, yoxlanması və təkmilləşdirilməsi prosesini başladı. Bu prosesin tərkib hissəsi kimi, Aiçi Biomüxtəliflik Hədəflərinə uyğunlaşmaq üçün ölkəyə daha efefktivli hesabat verməyə imkan yaradacaq ölçülə bilən hədəflər və göstəricilər hazırlayacaqdır. Əlavə 1-i istisna edən bir ölkə kimi, Azərbaycan 2015-ci ildə BMTİDÇK-ə Üçüncü Milli Kommunikasiyasını hazırladı və təqdim etdi.

Nəzərdə tutulan respondentlərə hökumətin ekoloji və qeyri-ekoloji sektorlarından siyasət hazırlayanları, araşdırma, akademik, biznes, həmçinin vətəndaş cəmiyyətinin seçilmiş nümayəndələri daxil idi (Əlavə 1).

Azərbaycanda 17 hökumət orqanı / agentliyi, 3 qeyri- hökumət orqanı, 1 akademik orqan və 2 özəl sektor nümayəndəndəsi olmaqla ümumilikdə 23 orqan / potensial respontdent müsahibə üçün dəvəti və sorğunu tamamlamaq üçün təklifi qəbul etdi. Müsahibələr təyin edilən vaxtda münasib olmadıqlarına görəEco Lex QHT-i istisna olmaqla, Əlavə 1-də sadalanan bütün orqanların nümayəndələri ilə aparılıb. Müsahibələr üz-üzə aparıldı və 30-45 dəqiqə ərzində davam etdi. Üç halda, üz-üzə görüşmələr mümkün olmadı və müsahibələr telefon vasitəsilə aparıldı.

# 2 Nəticələr vəəsas məsələlər

Bu bölmə bütün nəzərdən keçirilmiş qiymətləndirmələr üçün toplanmış cavabları analiz edir. Daha ətraflı məlumatƏlavə 2-də verilmişdir.

## Effektivlik

### Əsas məsələlər

- Qiymətləndirmələr faydalı və lazımlıdır
- Sənədlərin analitik keyfiyyəti ortadır
- Bəzi maraqlı tərəflərin BMK və BMİDÇK hesabatları barəsində məhdud məlumatı var idi

Cavabların təxminən 90 faizigöstərir ki, ekoloji qiymətləndirmələr **maraqlı tərəflərin ehtiyaclarını** qarşılayır və ya qismən qarşılayır və **ekoloji siyasət ehtiyaclarına** kifayət qədər cavab verir.

Qiymətləndirmələrin ümumi **analitik keyfiyyəti** ortadan (cavabların təxminən 60 faizi) yüksəyə (cavabların təxminən 40 faizi) olaraq qiymətləndirildi. Maraqlı tərəflərin çoxu (cavabların 90 faizi) məlumat verdi ki, qiymətləndirmələrin **siyasət üzərində** ortadan yüksəyə təsiri var. Sənədlər milli səviyyədə **əlavə dKyərə** sahibdir.

Bəzirespondentlər BMK və BMİDÇK hesabatlara uyğun olaraq göstəriciləri qiymətləndirə bilmədilər.

**Şəkil 1. Effektivlik – əsas göstəricilər** (ortalama cavab, %-lə)



## Keyfiyyət

### Əsas məsələlər

- ətraf mühitin vəziyyəti hesabatı ən uyöun sənəd kimisayılır
- Zamanlılıq, mövcud əhatə dairəsi, müstəqillik və kommunikasiya kifayət qədərdir
- Analitik keyfiyyət zaman kəsimində stabildir

Ekoloji qiymətləndirmələrin **ümumi keyfiyyəti** orta olaraq dəyərləndirildi. Respondentlər elmi əsaslı tədqiqatların az olması qeyd etdilər. Hesabatların əksəriyyəti ölkə səviyyəsində olan statistika istifadə edərək hazırlanır, lakin yerli informasiyaya və informasiya keyfiyyətinin artırılmasına ehtiyac vardır. Bəzi respondentlərbildirdi ki, ekoloji situasiyalar üzrə son 2013-cü il milli hesabat həyata keçirilmiş tədbirlər haqqında həddindən artıq çox, gələcək illərdə gerçəkləşdirilməli olan problemlər, ehtiyaclar və hədəflər barədə daha az məlumatı özündə ehtiva edir. Cari və əvvəlki hesabat dövrləri arasında tendensiyaları müşahidə etmək və ya anailitik müqayisələr aparmaq mümkün deyil.

Cavabların təxminən 80faizi qiymətləndirmələrin **yetərliliyini** orta səviyyəli olaraq dəyərləndirərkən, yalnız 20 faizi yüksək qiymətləndirdi. Ekoloji situasiyalar üzrə 2013-cü il milli hesabat sənədlər arasında ən yüksək reytinqə malikdir.

Cavabların 80 faizdən çoxu göstərdi ki, qiymətləndirmələr **zamanlılıq** meyarı baxımından yüksəkdir.

Cavabların təxminən 90 faizi göstərdi ki, **mövcud əhatə dairəsi** orta səviyyədə idi. Hesabatlar ölkənin müvafiq inkişafı üçün vacib olan bir neçə mövzunu əhatə edir. BMK və BMİDÇK-a hesabatlar hərtərəfli olaraq qiymətləndirildi. Bəzi repondentlər BMİDÇK-a verilən hesabatda adaptasiya ilə bağlı məhdud informasiya olduğunu və texnoloji, maliyyə və potensial ehtiyaclar barədə məlumatın olmadığını qeyd etdilər. Sadəcə bir respondent BMİDÇK-a verilən hesabatın əhatəliliyinin aşağı səviyyədə olduğunu eyd etdi.

İstifadəçilərin 60 faizindən çoxu qiymətləndirmələrin və verilən məlumatın **etibarlılığının** yüksək olduğunu qeyd etdilər, buna baxmayaraq, 30 faizistifadəçi onların orta səviyyədə olduğunu və inkişaf etdirilməsi üçün şərait olduğunu bildirdi.

Hazırlıq prosesinin **müstəqilliyi** və ekoloji qiymətləndirmələrin **kommunikasiyası** demək olar ki, bütün istifadəçilər tərəfindən ortadan yüksəyə kimi qiymətləndirildi.

Respondentlərin 90 faizindən çoxu qiymətləndirmələrin **keyfiyyətini** stabil olduğunu və ya **zamanla** bir qədər inkişaf etdiyini qeyd etdi. Bəzi respondentlər müasir metodların tətbiqi və ölkəninn ekoloji elm sahəsində yüksək bacarıqlı yerli mütəxəsislərinin sayının artması səbəbi ilə keyfiyyətin qismən yüksəldiyini müşahidə etmişlər.

**Şəkil 2. Qiymətləndirmələrin keyfiyyəti** (ortalama cavab, %-lə)



## Səmərəlilik

### Əsas məsələlər

- Qiymətləndirmələr müvafiq məlumatı əhatə edir
- Metod və üsulların istifadəsi orta səviyyədədir
- Optimallaşdırma üçün orta səviyyədə potensial vardır

Demək olar ki, bütün müsahibə götürülənlər hesabat**larmüvafiq informasiyanı** çatdırdıqlarını və ya qismən çatdırdıqlarını qeyd etdilər. Bir respondent bilmədi.

Respondentlərin təxminən 60 faizidüşünür ki, hesabatlar ölkədə ekoloji **siyasətin hazırlanmasındabir** rol oynayır. Bütün hesabatlar yeni strateji siyasət sənədlərinin və qanunvericiliyin inkişafına istiqamətləndirir. Məsələn, BMİDÇK-a təqdim edilən hesabat kənd təsərrüfatı inkişafı üçün Strateji Yol Xəritəsinin hazırlanmasında kömək olan kənd təsərrüfatı sektorunun adaptasiya prioritetlərini müəyyənləşdirdi. Təxminən respondentlərin 20 faizi bu suala cavab verə bilməmişdi.

Respondentlərin 70 faizindən çoxu ekoloji qiymətləndirmələrdə **analitik metod və üsulların** istifadəsinin qismən uyğun və yetərli olduğununa inanırdı. Respondentlərin təxminən 20%-i isə bu suala cavab verə bilmədi.

Respondentlərin təxminən 85faizi qiymətləndirmələrin **gəlirləri xərclərini** əsaslandırır. Ekoloji qiymətləndirmələr inkişaf prosesi adətən Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin natura yardımı ilə BMTİP layihələri vasitəsilə QEF tərəfindən maliyyələşdirilir

Cavabların 90 faizi müasir və səmərəli operativ iş axını baxımından qiymətləndirmələrin **optimallaşdırılması potensialının** mövcud olduğunu qəbul edir.

**Şəkil 3. Səmərəlilik – əsas göstəricilər** (ortalama cavab, %-lə)



## Siyasət təsiri

### Əsas məsələlər

- Qiymətləndirmələr siyasət müdaxilələrini müəyyən etməyə və siyasət alətlərinin seçilməsinə kömək edir
- Qiymətləndirmələr siyasət alətlərinin təkmilləşdirilməsinə və siyasətlərin həyata keçirilməsinə müəyyən dərəcədə kömək edir

Cavabların 40 faizindən çoxu ekoloji qiymətləndirmələrin lazımi **siyasət müdaxilələrinin**müəyyənləşdirilməsində müəyyən rol oynadığınıqeyd etdi və təxminən 25%-i rolu çox əhəmiyyətli olaraq qiymətləndirdi.

Cavabların 75 faizi göstərir ki, sənədlər siyasət müdaxilələrinin **miqyas və əhatəsini** müəyyənləşdirilməsinə orta və yüksək səviyyədə kömək edir.

Respondentlərin 95 faizindən çoxu qiymətləndirmələrin **siyasət alətlərini seçməyə** (hüquqi, maarifləndirmə və s.) önəmli dərəcədə kömək etdiyini; orta və yüksək səviyyədə **siyasət alətlərinitəkmilləşdirməyə** (hədəflərin və göstəricilərin təyin edilməsi də daxil olmaqla) kömək etdiyini və orta (70%) və yüksək (30%) səviyyədə **siyasətlərin həyata keçirilməsinə** isə kömək etdiyini göstərdi.

Sənədlər **ekoloji siyasətlərin**effektivliyi və səmərəliliyini qiymətləndirməyə orta və yüksək səviyyədə kömək edir.

**Şəkil 4. Siyasətin əhəmiyyəti və təsiri** (ortalama cavab, %-lə)



Ümumiyyətlə, bütün tematik sahələr üzrə ölkənin ekoloji performansının təkmilləşdirilməsinə kömək etmək məqsədi güdən ekoloji qiymətləndirmələr üçün tələb yüksəkdir və ya çox yüksəkdir. Cavabların 60 fazinindən çoxu enerji ilə bağlı qiymətləndirmələrin çox daha yüksək səviyyədə olması lazım olduğunu göstərir. Nəqliyyat və tullantılar orta balla qiymətləndirildi.

**Şəkil 5. Qiymətləndirmələr üçün gələcək tələb** (ortalama cavab, %-lə)




## Maarifləndirmə və əhatə dairəsi

### Əsas məsələlər

- Qiymətləndirmələr onlayn formada mövcuddur: ƏMVvəBMİDÇK hesabatları Nazirliyin veb səhifəsində və BMK hesabatı isə Konvensiyanın ven səhifəsində
- Qiymətləndirmələrin daha geniş kommunikasiyası və təqdimatı vacibdir

Bütün hesabatlar müvafiq veb portallarda yerləşdirilib və ictimaiyyət üçün açıqdır. 2008-2012-ci illər üçün Ekoloji Situasiyalar haqında Milli Hesabat Nazirliyin saytında yerləşdirilib və milli dildə mövcuddur. BMK-a təqdim edilən Beşinci Milli Hesabat Bioloji Müxtəlifik üzrə Konvensiyanın veb saytında yerləşdirilmişdir və İngilis dilində mövcuddur. BMİDÇK-a təqdim edilən Üçüncü Milli Kommunikasiya BMİDÇK-nin veb səhifəsində İngilis dilində yerləşdirilmişdir və Nazirliyin rəsmi saytında isə Azərbaycan dilində mövcuddur.

Azərbaycanda qeydiyyatdan keçmiş 102 ekoloji QHT-lər arasında, 21-i fəaldır və qiymətləndirmələrdən xəbərdar ola bilərlər.

Hesabat başlıqlarına dair Google axtarışı hər bir başlıq üçün dörd (BMK), altı (BMİDÇK) və dörd (ƏMV) ədəd girişi verir.

Qiymətləndirmələrin mövcud olmasına baxmayaraq, hələ də müxtəlif ictimai maarifləndirmə tədbirləri və hesabatların daha geniş kommunikasiya və təqdimatı vasitəsilə ümumi ictimaiyyətin hesabatlara çıxışının təkmilləşdirilməsi üçün imkan var.

# 3 Nəticələr və mülahizələr

Ətraf mühitin qiymətləndirilməsinin ümumi effektivliyi yüksəkdir, lakin bəzi hesabatlar boşluq və problemlərin düzgün təhlilini vermir, məlumat isə olduqca ümumidir. Həmçinin, növbəti hesabat dövrü üzrə konkret hədəflərdə əskiklik vardır və tövsiyyələr çox ümumidir.

### Mülahizələr

- Analitik fəsillərin məzmunu təkmilləşdirilməlidir
- Mövcud boşluqlar, ehtiyaclar və prolemlər üzrə məlumat təmin edilməlidir
- Hədəflər və tövsiyələr, həmçinin onlara nail olmağın metodları aydın ifadə edilməlidir

Hesabatların ümumi keyfiyyəti yüksək qiymətləndirilmişdir. Lakin, yeni alətlər və təlimatların tətbiqi ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (BMİDÇK) Milli Kommunikasiya hesabatının təkmilləşdirilməsi üçün ehtiyac vardır. Cari hesabatda inventar metologiyasının yenidən işlənmiş olduğu İDHP (İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel) 1996istifadə edilmişdi və növbəti hesabatlarda İDHP 2006 istifadə edilməlidir. Milli Kommunkiasiya ilə əlaqəli digər bir məsələ isə mövcud əhatə dairəsindəki boşluqdur.

### Mülahizələr

- BMİDÇK -ə Milli Kommunikasiya hesabatının inventar və uyğunlaşdırma hissələri üçün yeni üsul və qaydalar tətbiq olunmalıdır
- Azərbaycanla əlaqəli bütün mövzular BMİDÇK əsasında yeni bir heabatlaşma mərhələsində əhatə olunmalıdır

Hesabatların keyfiyyətini yaxşılaşdırmaq üçün milli və yerli ekspertlərdən ibarət daha geniş birəhatəsini buraya daxil etməyə, həmçinin, onlar üçün müvafiq ixtisas artırma fəaliyyətlərinin təşkilinəehtiyac vardır.

### Mülahizələr

- Yerli ekspertlər də daxil olmaqla, qiymətləndirmələrin hazırlanması üçün ehtiyac olan ekspertlərin iştirakı təmin olunmalıdır
- Qiymətləndirmə hazırlanmasın üzrə xüsusi təlim sessiyaları

Bu və bənzər qiymətləndirmə hesabatları əhatə olunan bütün mövzularda ölkənin fəaliyyətini yaxşılaşdırmaq üçün xüsusilə vacibdir.

### Mülahizə

- Milliekoloji qiymətləndirmələrə daha ətraflı sektor məlumatları daxil edilməlidir

Ətraf mühitlə əlaqəli bütün hesabatların milli səviyyədə idarə olunan veb səhifələrdə, xüsusilə də TN-nin veb səhifəsində mövcud olması vacibdir və qiymətləndirmələrin istifadəsi üzrə məlumatlara daha yaxşı nəzarət edilməsi lazımdır.

### Mülahizələr

- Ekoloji qiymətləndirmələrin milli olaraq idarəolunan veb səhifələrdə mövcudluğundan əmin olunmalıdır
- Ekoloji qiymətləndirmələrin istifadəsi üzrə məlumatın sistematik toplanması təmin edilməlidir

Qiymətləndirmənin daha geniş kommunikasiyası və təqdimatı zəruridir.

### Mülahizələr

- Vətəndaş cəmiyyəti nümayəndələri və QHT-lər daxil olmaqla, maraqlı tərəflərin daha geniş dairəsi qiymətləndirmə təqdimatı və yayılmasına cəlb edilməlidir
- Qiymətləndirmələr daha yaxşı əlaqələndirilməlidir

# Əlavələr

# Əlavə 1 Müsahibə götürülmüşqurumlar

Prezident Aparatı yanında İqtisadi İslahatlar və Kommunikasiya Mərkəzi
Parlament (Təbii Sərvətlər, Enerji və Ətraf Mühit üzrə Komitəsi)
Ekologiya və Təbii Sərvətlər Nazirliyi
İqtisadiyyat Nazirliyi
Kənd Təsərrüfatı Nazirliyi
Enerji Nazirliyi
Təhsil Nazirliyi
Səhiyyə Nazirliyi
Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
Fövqəladə Hallar Nazirliyi
Dövlət Statistika Komitəsi
Milli Elmlər Akademiyası
Su və Meliorasiya Təsərrüfatı ASC
Azərsu ASC
Bərpa olunan və Alternativ Enerji Mənbələri üzrə Dövlət Agentliyi
Dövlət Neft Şirkəti (SOCAR)
AzərenerjiASC
TamizŞəhər ASC
Cənubi Qafqaz üzrə Regional Ətraf Mühit Mərkəzi, Azerbaycan Şöbəsi
Yerli İdarəetməyə Yardım QHT
REC Azərbaycan MMC
OIKOS KonsaltinqMMC

# Əlavə 2 Sorğuya cavablarin xülasəsi

## I. Effektivlik

1 Effektivliyin əsas göstəriciləri

| | Bəli | Ola bilsin ki | Bilmirəm | Xeyr |
|---|---|---|---|---|
| 1.1 EQmaraqlı tərəfin ehtiyac və tələblərini ödədimi? | 40 | 21 | 5 | 0 |
| 1.2 1.2 EQ ekoloji siyasət ehtiyaclarına kifayət qədər cavab verdimi? | 29 | 23 | 4 | 0 |
| 1.3 EQ analizləri yüksək keyfiyyət tələblərinə cavab verirmi? | 25 | 38 | 3 | 0 |
| 1.4 EQ nəticələrinin ekoloji siyasə-tin hazırlanmasına bir təsiri var mı yoxsa gələcəkdə belə bir təsir olması ehtimalı varmı? | 21 | 40 | 5 | 0 |
| 1.5 EQ milli səviyyədə əlavə dəyər təmin etdimi? | 0 | 27 | 0 | 0 |

2 Ekoloji Qiymətləndirmə hesabatlarının Ümumi Keyfiyyəti

| | Aşağı | Orta | Yüksək |
|---|---|---|---|
| 2.1 Ekoloji Qiymətləndirmə hesabat-larının ümumi keyfiyyətini necə qiymətləndirərsiniz? | 0 | 22 | 0 |

3 Ümumiyyətlə, Ekoloji Qiymətləndirmə hesabatlarında göstərilən məlumatların keyfiyyətini aşağıdakı meyarlara görə necə qiymətləndirərsiniz?

| | Aşağı | Orta | Yüksək |
|---|---|---|---|
| 3.1 Yetərlilik | 0 | 51 | 15 |
| 3.2 Zamanlılıq | 0 | 10 | 57 |
| 3.3 Mövcud əhatə dairəsi | 1 | 59 | 7 |
| 3.4 Etibarlılıq | 4 | 21 | 41 |
| 3.5 Müstəqillik | 2 | 42 | 22 |
| 3.6 Yaxşı ünsiyyət | 3 | 45 | 18 |

4 Ekoloji Qiymətləndirmə hesabatlarının keyfiyyətinin inkişafı

| | Azalan | Stabil | Artan |
|---|---|---|---|
| 4.1 Son illərdə Ekoloji Qiymətləndirmə hesabatlarının keyfiyyətinin inkişafını necə qiymətləndirərsiniz? | 5 | 57 | 4 |

## II. Səmərəlilik

1 Səmərəliliyin əsas göstəriciləri

| | Bəli | Ola bilsin ki | Bilmirəm | Xeyr |
|---|---|---|---|---|
| 1.1 EQ müvafiq məlumatları çatdırdımı? | 33 | 30 | 3 | 0 |
| 1.2 EQ ölkədə ətraf mühit siyasətinin hazırlanmasında rol oynadımı? | 11 | 28 | 12 | 5 |
| 1.3 EQ -də analitik metod və alətlərin istifadəsi uyğun və kifayətdir mi? | 15 | 35 | 13 | 3 |
| 1.4 EQ xərc və faydaları müqayisə edən pulun dəyərini göstərdimi? | 38 | 23 | 5 | 0 |
| 1.5 Müasir və səmərəli operativ iş axını baxımından EQ-nin optimallaşdırılması potensialı var mı? | 0 | 60 | 6 | 0 |

2 EQ hesabatları ... məqsədilə müvafiq məlumatı çatdırdımı

| | Tamamilə əhəmiyyətsiz rol (1) | 2 | 3 | 4 | Çox əhəmiyyətli rol (5) |
|---|---|---|---|---|---|
| 2.1 zəruri siyasət müdaxilələrinin müəyyən edilməsinə kömək etmək? | 0 | 7 | 16 | 27 | 16 |
| 2.2. siyasət müdaxilələrinin miqyasını və əhatəsini müəyyənləşdirməyə kömək etmək? | 0 | 14 | 23 | 30 | 1 |
| 2.3 siyasət alətlərini (hüquqi, maarifləndirici və s.) seçməyə kömək etmək? | 0 | 0 | 22 | 42 | 2 |
| 2.4 siyasət alətlərini (onların hədəflərinin və göstəricilərinin müəyyənləşdirilməsi də daxil olmaqla) təkmilləşdirməyə kömək etmək? | 0 | 14 | 39 | 13 | 0 |
| 2.5 siyasətlərin həyata keçirilməsinə kömək etmək? | 0 | 0 | 47 | 19 | 0 |
| 2.6 ekoloji siyasətlərin effektivliyini və səmərəliliyini qiymətləndirməyə kömək etmək? | 0 | 22 | 13 | 25 | 6 |

3 Bu və buna bənzər Ətraf Mühit Qiymətləndirmə hesabatları xüsusilə ölkənin ətraf mühitin performansının yaxşılaşdırılmasına kömək etmək məqsədilə lazımdır.

| | Tamamilə əhəmiyyətsiz rol (1) | 2 | 3 | 4 | Çox əhəmiyyətli rol (5) |
|---|---|---|---|---|---|
| 3.1. Hava çirklənməsi və ozon təbəqəsinin incəlməsi | 0 | 0 | 0 | 14 | 8 |
| 3.2. İqlimdəyişikliyie | 0 | 0 | 0 | 11 | 11 |
| 3.3 Su | 0 | 0 | 1 | 13 | 8 |
| 3.4 Biomüxtəliflik | 0 | 0 | 2 | 14 | 6 |
| 3.5 Torpaq və torpağın üst qatı | 0 | 0 | 5 | 7 | 10 |
| 3.6 Kənd təsərrüfatı | 0 | 0 | 3 | 14 | 5 |
| 3.7 Enerji | 0 | 0 | 6 | 8 | 14 |
| 3.8 Nəqliyyat | 0 | 0 | 7 | 7 | 8 |
| 3.9 Tullantılar | 0 | 0 | 10 | 6 | 6 |

# Əlavə 3 Dəyərləndirmə aləti (sorğu)

**EEA Dəyərləndirmə aləti:**

**Son milli Ekoloji Qiymətləndirmələrin (EQ) dəyərləndirilməsinin əhatə dairəsi və əsas sualları**

**QEYD:** Aşağıdakı cədvəllər yoxlanış səbəbilə seçilmiş bütün nəşrlər üçün doldurulacaqdır. Xahiş olunur, bu nəşrlərlə bağlı respondentin rəyinə uyğun olan xanalarda nəşr simvollarını qoyasınız. Nümunə:

| | Aşağı | Orta | Yüksək | Şərh |
|---|---|---|---|---|
| 2.1 Ekoloji Qiymətləndirmə hesabatlarının ümumi keyfiyyətini necə qiymətləndirərsiniz? | B | S | W, A | |

**S**: SoE hesabatı; **W**: Su üzrə tematikhesabatlar; **A**: Hava /iqlim üzrə tematik hesabatlar; **B**: Biomüxtəliflik üzrə tematik hesabatlar

## Effektivlik və səmərəlilik–dəyərləndirmənin iki ölçüsü:

### ✓ I. Effektivlik

**1 Effektivliyin əsas göstəriciləri**

| | Bəli | Ola bilsin ki | Bilmirəm | Xeyr | Şərh |
|---|---|---|---|---|---|
| 1.1 EQ maraqlı tərəfin ehtiyac və tələblərini ödədimi? | | | | | |
| 1.2 EQ ekoloji siyasət ehtiyaclarına kifayət qədər cavab verdimi? | | | | | |
| 1.3 EQ analizləri yüksək keyfiyyət tələblərinə cavab verirmi? | | | | | |
| 1.4 EQ nəticələrinin ekoloji siyasətin hazırlanmasına bir təsiri var mı yoxsa gələcəkdə belə bir təsir olması ehtimalı varmı? | | | | | |
| 1.5 EQ milli səviyyədə əlavə dəyər təmin etdimi? | | | | | |

**2 Ekoloji Qiymətləndirmə hesabatlarının Ümumi Keyfiyyəti**

| | Aşağı | Orta | Yüksək | Şərh |
|---|---|---|---|---|
| 2.1 Son illərdə Ekoloji Qiymətləndirmə hesabatlarının ümumi keyfiyyətini necə qiymətləndirərsiniz? | | | | |

3 Ümumiyyətlə, Ekoloji Qiymətləndirmə hesabatlarında göstərilən məlumatların keyfiyyətini aşağıdakı meyarlara görə necə qiymətləndirərsiniz?

| | Aşağı | Orta | Yüksək | Şərh |
|---|---|---|---|---|
| 3.1 Yetərlilik | | | | |
| 3.2 Zamanlılıq | | | | |
| 3.3 Mövcud əhatə dairəsi | | | | |
| 3.4 Etibarlılıq | | | | |
| 3.5 Müstəqillik | | | | |
| 3.6 Yaxşı ünsiyyət | | | | |

4 Ekoloji Qiymətləndirmə hesabatlarının keyfiyyətinin inkişafı

| | Azalan | Stabil | Artan |
|---|---|---|---|
| 4.1 Son illərdə Ekoloji Qiymətləndirmə hesabatlarının keyfiyyətinin inkişafını necə qiymətləndirərsiniz? | | | |

## ✓ II. Səmərəlilik

1 Səmərəliliyin əsas göstəriciləri

| | Bəli | Ola bilsin ki | Bilmirəm | Xeyr | Şərh |
|---|---|---|---|---|---|
| 1.1 EQ müvafiq məlumatı çatdırdımı? | | | | | |
| 1.2 EQ ölkədə ətraf mühit siyasətinin formalaşdırılmasında rol oynadımı? | | | | | |
| 1.3 EQ -də analitik metod və alətlərin istifadəsi uyğun və kifayətdir mi? | | | | | |
| 1.4 EQ xərc və faydaları müqayisə edən pulun dəyərini göstərdimi? | | | | | |
| 1.5 Müasir və səmərəli operativ iş axını baxımından EQ-nin optimallaşdırıl-ması potensialı var mı? | | | | | |

2 EQ hesabatları ... məqsədilə müvafiq məlumatı çatdırdımı

| | Tamamilə əhəmiyyətsiz rol (1) | 2 | 3 | 4 | Çox əhəmiyyətli rol (5) |
|---|---|---|---|---|---|
| 2.1 zəruri siyasət müdaxilələrinin müəyyən edilməsinə kömək etmək? | | | | | |
| 2.2. siyasət müdaxilələrinin miqyasını və əhatəsini müəyyənləşdirməyə kömək etmək? | | | | | |
| 2.3 siyasət alətlərini (hüquqi, maarifləndirici və s.) seçməyə kömək etmək? | | | | | |
| 2.4 siyasət alətlərini (onların hədəflərinin və göstəricilərinin müəyyənləşdirilməsi də daxil olmaqla) təkmilləşdirməyə kömək etmək? | | | | | |
| 2.5 siyasətlərin həyata keçirilməsinə kömək etmək? | | | | | |
| 2.6 ekoloji siyasətlərin effektivliyini və səmərəliliyini qiymətləndirməyə kömək etmək? | | | | | |

3 Bu və buna bənzər Ətraf Mühit Qiymətləndirmə hesabatları xüsusilə ölkənin ətraf mühitin performansının yaxşılaşdırılmasına kömək etmək məqsədilə lazımdır.

| | Tamamilə əhəmiyyətsiz rol (1) | 2 | 3 | 4 | Çox əhəmiyyətli rol (5) |
|---|---|---|---|---|---|
| 3.1. Hava çirklənməsi və ozon təbəqəsinin incəlməsi | | | | | |
| 3.2. İqlimdəyişikliyie | | | | | |
| 3.3 Su | | | | | |
| 3.4 Biomüxtəliflik | | | | | |
| 3.5 Torpaq və torpağın üst qatı | | | | | |
| 3.6 Kənd təsərrüfatı | | | | | |
| 3.7 Enerji | | | | | |
| 3.8 Nəqliyyat | | | | | |
| 3.9 Tullantılar | | | | | |

European Environment Agency